*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 482-488*

https://doi.org/10.62837/2025.7.482

**SƏADƏT ARİF QIZI AĞAKİŞİYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*Mingəçevir Dövlət Universiteti*
*Dilarə Əliyeva küç., 21 Mingəçevir, Azərbaycan*
*e-mail: agakishiyeva.s@gmail.com*
*tel: 994 552148574*

# XIX ƏSRDƏ VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN QADIN YAZIÇILARININ YARADICILIQ PRİORİTETLƏRİ: MAARİFÇİLİK VƏ AZƏRBAYCAN QADINI

## XÜLASƏ

Müasir dövrdə Azərbaycanın qadın yazıçılarının ədəbi-bədii irsinin daha dərindən öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Qlobal tendensiyaların sürətli templərlə baş verdiyi, siyasi liberalizmin, tolerantlığın və digər ümumbəşəri dəyərlərin insan həyatının adekvat məzmununa, onun həyat tərzinə çevrildiyi yeni informasiya cəmiyyətində bəşəriyyətin əxlaqi-mədəni sütunlarından birini təşkil edən qadının bədii əsərlərdə, sözdə və kəlamda ifadə olunan şəxsi fikrinin, düşüncələrinin hisslərinin və duyğularının elmi təhlili və öyrənilməsi fövqəladə şəkildə aktuallaşmışdır. Bu baxımdan təlatümlərlə və fundamental dəyişikliklərlə dolu XIX əsrdə və XX əsrin əvvəllərində dövrün sərt sınaqlarına və məhrmiyyətlərinə ləyaqətlə müqavimət göstərən Azərbaycan qadınının rəşadəti, onun azadlıq, ədalət və həqiqət uğrunda mücadiləsi xüsusi maraq doğurur. Təqdim olunan məqalədə adlarını Azərbaycan xalqının ədəbi fikir tarixinə (XIX əsr, XX əsrin əvvəli) qızıl hərflərlə yazdırmış qadın ədiblərimizin bədii yaradıcılığından bəhs olunur. Onların dühasının mənbəyi, ərsəyə gətirdikləri əsərlərin xarakteri, ideya-siyasi məzmunu və təyinatı açıqlanır. Maarifçiliyin Azərbaycan cəmiyyətinə və qələm sahibi olan Azərbaycan qadınının dünyagörüşünə etdiyi təsir və bu təsirin başlıca mexanizmləri açıqlanır. Azərbaycanın qadın ədiblərinin əxlaqi-mədəni keyfiyyətlərinin elmi şərhi, onların yaratdığı əsərlərdə humanizmin, maarifçiliyin, nəcib və xeyirxah əməllərin tərənnüm olunması məqalənin leytmotivini təşkil edir.

**Açar sözlər:** qadın yazıçı, Azərbaycan qadını, maarifçilik, humanizm, azadlıq, bərabərlik.

XIV əsrdən başlayaraq bir-birinin ardınca Avropada baş verən mütərəqqi hərəkatlar (İntibah, humanizm, maarifçilik) əvvəlcə Avropa insanının, daha sonra bütün bəşətiryyətin dünyagörüşünü, həyata, dünyaya və ənənəvi dəyərlərə münasibətini əsaslı şəkildə dəyişdi. Əsrlər ərzində insanların şüurunda dərin kök salmış, onun qəlbinə, ruhuna və iradəsinə hakim kəsilmiş neqativ stereotiplərin sındırılması prosesi başlandı. İnsanlıq yeni həyat tərzinə keçid edərək, daim polemika obyekti olan məfhumlara, onların ekzistensial məsələlərdə və davamlı inkişafda roluna və əhəmiyyətinə yenidən baxmağa, onları rasional müstəvidə və optimal şəkildə qiymətləndirməyə başladı. Bu

məfhumlardan biri də varlığın substansional elmentlərindən biri sayılan qadın idi. Bəşəriyyətin yüksək idraki dəyər kəsb etməsi, xüsusilə də Avropada humanizm ideyalarının yayılması ilə əlaqədar kilsənin üzdəniraq "monopoliyasında" olan qadın şəxsiyyəti, davamlı inkişafın başlıca hərəkətverici qüvvəsi kimi onun cəmiyyətdə yeri və rolu, hüquq və azadlıqları məsələsi gündəmə gəldi. Mütərəqqi həyat mövqeyi, insan qabiliyyətinin ruhani-mədəni inkişafı kimi təzahür edən təkamül humanizmi etnik, milli, dini və cinsi əlamətlərini nəzərə almadan insanı (Homo sapiens) daim inkişaf edən və ya deqradasiyaya uğrayan ali dəyər kimi nəzərdən keçirirdi [4, s. 281-283]. O, bəşər tarixində, ilk dəfə olaraq qadına şəxsiyyət qismində dəyər verir, onun ləyaqətinin, hüquq və azadlıqlarının qorunmasını cəmiyyətin əsas vəzifəsi elan edirdi. Qadının özünü elmi, intellektual, ədəbi-bədii və estetik-mədəni cəhətdən ifadə etməsi, rifaha, xoşbəxtliyə və səadətə quvuşması ilə bağlı məsələni isə insanlığın ən möhtəşəm nailiyyəti kimi qiymətləndirirdi. Məsələyə bu cür yanaşma tədricən Avropa cəmiyyətinə eqalitarizm (fra. *egalite* - bərabərlik, elitarizmin əksi, etnik, milli, irqi, dini sosial və cinsi əlamətlərindən asılı olmayaraq hər bir üzvünün bərabər sosial və vətəndaş hüquqlarına sahib olması ideyasına əsaslanan konsepsiya) və feminizm (lat. *femina* - "qadın", - ümumi anlamda qadınların iqtisadi, siyasi, sosial və fərdi hüquq və azadlıqlarının genişləndirilməsinə və kişilərin hüquqları ilə bərabərləşdirilməsinə istiqamətlənmiş sosial-siyasi hərəkatlar) kimi yeni ictimai dəyərlər gətirdi. Feminanın öz hüquqları uğrunda mücadiləsinin apogeyi sayılan feminizm əsrlərlə haqsızlığa və istismara məruz qalan, lakin müqavimət göstərmək gücü olmayan qadının qiyamı, onun üsyan edən ruhunun və zəkasının özünə qayıdışı kimi təzahür edirdi. Yuxarıda qeyd edilənlər tədricən ictimai-mədəni müstəviyə "emansipasiya" (lat. *emansipatio* - azad etmək, - qadın, yaxud uşaqların hüquqi və sosial asılılıqdan azad edilməsi) adlanan fenomenin çıxmasına səbəb oldu. Bu hadisənin təsiri altında təkcə qadının əsrlər ərzində süni şəkildə və zorakı üsullarla formlaşdırılmış məzlum, itaətkar obrazı və "günahkar" imici dəyişmədi, həm də qəlbinin ən dərin guşəsində əsrlərlə kök salmış duyğuları nəgmələrdə, kəlamlarda və çağırışlarda ifadə olunaraq yeni və əsrarəngiz qadın dünyası yaratdı. Qadın qəlbinə apriori məxsus olan hisslərin, duyğuların və ideyaların oyanışı bədii əsərlərə (təmiz lirika, poema, roman, povest və s.) çevrildi. O, min illər əvvəl qollarına vurulmuş zəncirləri sındıraraq sosiallaşmağa, cəmiyyətdə öz yerini və mövqeyini tutmağa başladı və bütün bunlar ona cəmiyyətdə, ailədə və məişətdə söz sahibi olmaq imkanı yaratdı. Lakin bütün bunlar bir göz qırpımında, ağrısız, acısız baş vermədi. Hüququnun bərqərar edilməsi yolunda qadın eşafotlarda can verdi, tonqallarda yandırıldı, öz səadətindən imtina edib monastırlarda məskən saldı, məişət zorakılğına dözüb kölə həyatı yaşamağa məhkum edildi. Qəlbinin sakral duyğuları ilə, puça çıxmış ümidlərlə və qırıq xəyallarla yaşadı. Bütün mütərəqqi çağırışlara, dərslərə, moizələrə və nəsihətlərə baxmayaraq, yeni dövrdə də, nəin ki, Şərqdə, həm də Avropada qadın sözü, qadın fikri və qadın duyğuları əsla nəzərə alınmadı. Hətta onun ədəbi-bədii əsərlərdə ifadə olunan ideyalarına tabu qoyuldu. Bunu Avropa ədəbiyyatında Jorj Sand kimi

tanınan Fransa yazıçısı Amandina Avrora Lusil Dupinin (baronessa Düdevan – 1804-1876) taleyi və yaradıcılığı haqqında tarixçə də sübuta yetirir. Təqiblərə məruz qalmamaq üçün o, inqilabi ideyaların beşiyi olan XIX əsr Fransasında kişi libasında gəzməyə, özünü kişi kimi təqdim etməyə və əsərləri dərc olunsun deyə kişi ("Jorj Sand") imzası ilə tanınmağa məcbur olmuşdu. Lakin qadın qəlbinin gücü, onun fövqəladə sentimentallığı və realizmi, qısa müddət ərzində bütün avropalıların qəlbinə hakim kəsilmişdi. Onun "İndiana" (1832), Konsuelo (1843), Daniella (1857) və digər əsərləri qısa müddət bestsellerə çevrilmiş və bu gündə sevilə-sevilə oxunan əsərlər sırasındadır. Jorj Sand (Avrora Dupin) vəfat edəndə (08 iyun 1876-cı il) Avropanın ən böyük qələm ustalarından biri sayılan Viktor Mari Hüqo (1802-1885) onun dəfn mərasimində bu sözləri demişdi: "Mərhumu böyük hüznlə yad edirəm və onun ölməz ruhuuna salamlar göndərirəm!" Bundan sonra hətta Jorj Sandın Panteonda (fra. *Pantheon* – Parisin 5-ci dairəsinin Latın kvartalında yerləşən tarixi-arxitektura abidəsi, məşhur fransız arxitektoru Jak Jermen Sufflonun layihəsi əsasında inşa olunmuş abidə, əvvəllər Müqəddəs Jenevyeva kilsəsi kimi xidmət etmiş, 1791-ci ildən Fransanın görkəmli şəxsiyyətlərinin dəfn olunduğu yerə çevrilmişdir) dəfn edilməsi təklifi ilə çıxış edənlər də var idi [5, s. 169-198]. Bu isə əsrlərin sərt sınaqlarından keçmiş, təbii kimliyini, şərəfini və ləyaqətini qoruyub saxlamış qadın qəlbinin, qadın şəxsiyyətinin, onun sakit, lakin üsyankar ruhunun təntənəsi idi.

Sözügedən dövrdə Azərbaycanda da qadın ruhunun və qəlbinin təntənəsinə nail olmuş cəsur və fədakar qadınlar var idi. Lakin Azərbaycan qadının emansipasiyası Avropa feminasının azadlıq mücadiləsindən qat-qat geri qalırdı. Bu isə bütün müsəlman Şərqində olduğu kimi Azərbaycanda da həyat ukladının son dərəcə sərt və qəddar üsullarla həyata keçirilən patriarxal ənənələrə əsaslanması ilə bağlı idi. Avropadan gələn dünyəvi (sivil) dəyərlərin və maarifçilik ideyalarının, bu və ya digər səbəblərdən Azərbaycan cəmiyyətinə xeyli gec nüfuz etməsi də qadın azadlığı və emansipasiyası ilə bağlı məsələlərin gündəmə gəlməsinə ciddi maneə törədirdi. Ruhanilər tərəfindən qəsdən müsəlman kodeksinin (şəriət qanunları) yanlış interpretasiyası, Qurani-Kərimdə qadın, zövcə və ana haqqında deyilən ilahi kəlamların və həqiqətlərin biləkdən dilə gətirilməməsi isə o dövrün türk-müsəlman kişisinin təfəkküründə neqativ-dağıdıcı stereotiplər yaradır, onun qadına adekvat dəyər verməsini mümkünsüz edirdi. Bu dövrdə yalnız maarifçiliyin və dünyəviliyin az da olsa nüfuz etdiyi ailələrdə (bir qayda olaraq zadəgan ailələrində) qadınlar məişətdə və cəmiyyət həyatında qismən öz rolunu, əhəmiyyətini və ümumbəşəri missiyasını dərk edir, həyata, insana və zəmanəyə münasibətini seirdə və sənətdə ifadə etmək imkanı qazanırdılar. Maarifçilik Azərbaycan cəmiyyətində daha dərin kök saldıqca zadəgan qadınların ədəbi-bədii fəaliyyəti zadəgan etiketinin və yüksək cəmiyyətin mühüm elementinə çevrilirdi. Yüksək tərbiyə və intellekt sahibləri olan kübar Azərbaycan qadınları, sözün əsl mənasında elsevərliklə, xalqsevərliklə, humanizmlə, rasionallıqla dolu xeyirxah və nəcib qəlbin daşıyıcıları kimi

də özlərini təsdiq edə bilmişdilər. Maarifçilik ideyaları XIX yüzillikdə Azərbaycan cəmiyyətinə nüfuz etdiyi zaman ölkəmiz postmünaqişə (I və II Rusiya-İran müharibələri) dövrünü yaşayır, üzləşdiyi ağır məhrumiyyətlərə baxmayaraq, xalqın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında mütərəqqi yeniliklər baş verirdi. Bu baxımdan Azərbaycanda da Avropa sivilizasiyasının nümunəsində maarifçiliyi "elmi inqilab" kimi qiymətləndirirdilər [3, s. 315-318].

XIX əsrin sonu, XX əsrin əvvəllərində Rusiyadan gələn maarifçilik dalğası, təbii ki, çarizmin Cənubi Qafqaz müsəlmanların rifah səviyyəsinin, onların sosial-iqtisadi və elmi-mədəni inkişafının qayğısına qalması demək deyildi. O dövrdə mülkədar-burjua ukladına əsaslanan Rusiya imperiyası azərbaycanlıların milli maraqlarını nəzərə ala bilməzdi. Hər bir imperiya kimi onun başlıca məqsədi yeni ərazilərdə bütün təbii və iqtisadi resurlara sahib olmaq, həmçinin azərbaycanlıların timsalında insan potensialını istismar etmək idi. Lakin bu dövrdə öz inkişafının apogeyini yaşayan klassik rus ədəbiyyatı nəcib və humanist ideyalarının gücü ilə elm və maarifçilik yolunu seçmiş, minilliklərin mövhumat divarına baltaları çalaraq orada ziya pəncərəsi açmağa çalışan yeni Azərbaycan insanının mədəni inkişafı üçün münbirt və əlverişli şərait yaratmışdı. Məhz çarizmin özünə qəti müxalifətdə olan XIX əsr mütərəqqi rus ədəbiyyatının köməyi ilə XIX əsr Azərbaycan yazıçıları, rəssamları və müxtəlif sahələrdə çalışan sənət adamları dünya sivilizasiyasının möhtəşəm mədəni nailiyyətlərinə nüfuz etməyə başladılar. O dövrdə Azərbaycan ədiblərinin yaradıcılığında milli azadlıq, istiqlal və maarifçilik idayalrının təbliği, xalqın milli özünüdərketməsinə nail olunması meylləri prioritet təşkil edirdi [2, s. 124-127]. İdeya-siyasi baxımdan XIX əsr Azərbaycan milli ədəbiyyatı azadlıq, tərəqqi və milli kimlik məsələlərini ön plana çəkən yeni Azərbaycan ziyalıların formalaşdırılmasını nəzərdə tuturdu. Fəlsəfi baxımdan isə onun başlıca məqsədi orta əsrlərə xas olan dini-mistik fikrin təsirindən tamamilə azad olmaq və ədəbi-bədii yaradıcılığı realizm və humanizm səviyyəsinə qaldırmaq idi. Bu tendensiyalar qısa müddət ərzində yüksək səviyyədə pozitiv düşünən, liberal-deomaktatik fikrin daşıyıcısı olan böyük intellektuallar ordusunun yetişməsinə səbəb oldu. Bu ordunn fədakar əsgərləri – XIX əsr Azərbaycan intellektual elitasının görkəmli nümayəndələri: Abbasqulu Ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, İsmayıl bəy Qutqaşınlı, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Nəsrulla Bahar, Əbülqasım Nabati, Mirzə Fətəli Axundov Nəcəf bəy Vəzirov və başqaları Azərbaycan ədəbi fikrinə mütərəqqi yeniliklər gətirməklə yanaşı böyük ruh yüksəkliyi ilə milli-istaiqlal mücadiləsinə başlayan Azərbaycan burjua millətinin formalaşmasına və onun yaxın gələcəkdə suverenlik və milli dövlətçilik kəsb etməsinə də həlledici təsir göstərdi.

XIX əsr Azərbaycan ədəbiyyatının ən mühüm əlamətlərindən biri də qadın ədiblərin fəaliyyəti ilə bağlı idi. Qeyd etmək lazımdır ki, həmin dövrdə əsasən zadəgan nəslindən olan qadın ədiblərinin milli Azərbaycan ədəbiyyatında yolgöstərən bir ulduz kimi parlaması, əsla təsadüf və ya qayğısız xan-bəy qızlarının kaprizi sayıla bilməz. Xurşudbanu Natəvan (1830-1897), Ağabəyim ağa Ağabacı Cavanşir (1780-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 482-488*

1832), Qönçəbəyim ağa Kəngərli (1827- ????), Fatma xanım Kəminə (1840-1898) və başqaları dövrün (XIX əsr) yüksək zəka, etika və mərifət sahibləri olan qadınları kimi bütün Şərq dünyasında məşhur olmuşlar. Onların zəkasının, qabiliyyətinin və dünyagörüşünün gücü təkcə Qərb və müsəlman mədəniyyətini dərindən bilmələri, ədəbi təfəkkür sahibləri olmaları ilə bitmirdi. Onlar həm də islam əhlinin, Azərbaycan insanının inkişafını ləngidən mövhümata savaş elan edən, insanın şərəf və ləyaqətini alçaldan stereotipləri israrla sındıran, xeyirxah əməlin mahiyyətinin pulda, var-dövlətdə, şəcərədə və titulda deyil, insanlıqda, humanizmdə, bərabərlikdə, mərhəmətdə və şəfqətdə olduğunu bəyan edən ilk qadın-mücəhidlər idi. Onlar maarifçiliyi bəşəriyyətin ən ali məqsədi kimi təqdim və tərənnüm edir, qadınların ictimai aktivliyini günün və yeni dövrün əsas tələbi elan edir, Azərbaycan qadınının qayğılarını, problemlərini, onların həyat vəzifələrini şeir və söz məclislərində (məsələn, Xurşudbanu Natavanın “Məclisi üns” dərnəyi) və ədəbi-bədii dərnəklərdə müzakirələrə çıxararaq populyarlaşdırmağa çalışırdılar. Azərbaycanın XIX əsr qadın ədibləri fövqəladə azad fikirli olmaqla yanaşı, həm də o dövrün Azərbaycan cəmiyyətində dərin kök salmış silki və zümrə prinsipləri ilə müəyyən olunmuş ənənəvi məhdudiyyətləri düşünülmüş şəkildə dəf edən ekstratolerant insanlar idi. Məsələn, sonuncu Qarabağ hökmdarı Mehdiqulu xan Cavanşirin qızı Xurşdbanu Natavanının 1869-cu ildə sadə xalqın (rəiyyət) içərisindən çıxmış şəxslə (Seyid Hüseyn) ailə qurması Qarabağda, Azərbaycanda və bütün Cənubi Qafqazda qınaq obyekti olsa da və buna görə də o, təqiblərə məruz qalsa da, həyata tamamilə başqa prizmadan baxan Azərbaycan xanımı ömrünün sonuuna qədər öz əqidəsindən dönməmiş, insanlığın irq, din, sosial mənsubiyyət müxtəlifliyi ilə deyil, insan qəlbinin dərinliyi, mərhəməti, nəcibliyi və şəfqəti ilə ölçüldüyünü israrla iddia etmişdir [1, s. 222].

Göründyü kimi XIX əsr Avropada və dünyada olduğu kimi Azərbaycanda da özünün yaradıcı və dəyişdirici gücü insanların şüurunda və dünyagörüşündə əsl inqilaba səbəb oldu. Fraqmentlərlə də olsa Azərbaycan qadınının söz və fikir sahibinə çevrilməsi, qısa devrədə də olsa özünün qayğılarını, problemlərini və qəlbinin minilliklərlə gizli qalan riqqətini bəyan etməsi daim patriarxal ənənələrin və mövhümatın diqtəsi ilə yaşayan Şərq-müsəlman dünyasında əsl inqilaba səbəb oldu. XII əsrdə baş vermiş İslam Renessansının parlaq nümunələrindən biri sayılan görkəmli Azərbaycan şairəsi Məhsəti Gəncəvidən (1089-1181) sonra, ilk dəfə olaraq XIX əsr Azərbaycan qadını bir daha şeirin və kəlamın məzmununa yeni və daha mütərəqqi məzmun qatmaq, onu gözəlləşdirmək və insanlığa xidmət etmək üçün yenidən qurmaq imkanı qazandı. Lakin XIX və XX əsr Avropa və Şərq xalqlarının həyatına nə qədər mütərəqqi dəyərlər gətirsə də mövhumat, xurafat, zorakılıq həmişə olduğu kimi tarixi keçmişin konservativ narrativlərinin təsirindən xilas ola bilmirdi. XX yüzilliyin əvvəllərində Azərbaycanda və bütün Cənubi Qafqaz regionunda liberal-demokratik ideyaların geniş vüsət almasına baxmayaraq, fikir azadlığı, xüsusilə də Azərbaycanın qadın ədiblərinin ideyaları senzura ilə tənzimlənirdi. Məhz bu səbəbdən Xanbikə xanım

Naxçıvanlı (Fatmabikə Usmiyeva-Cavanşir - 1856-1921), Səkinə xanım Axundzadə (1865-1927) və digər qadın ədiblərimiz əsərlərini alleqoriya (q.yun. *allegoria* – dolayı fikir) üslubunda və ya epistolyar (q.yun. *epistol* – məktub, namə - ədəbi fikrin məktublar vasitəsi ilə ifadə olunması) janrda yazmağa məcbur olur, ən müxtəlif bədii təsvirlərin və ayrı-ayrı ifadə vasitələrinin köməyi ilə əsərin ideya-siyasi məzmnunu pərdələməyə çalışırdılar. Bununla belə, Azərbaycan milli ədəniyyatına möhtəşəm töhfələr vermiş, XIX əsr qadın ədiblərimizin irsi ideya dətinliyi, hisslərin və duyğuların rasiionallıq üzərində aydın sezilən üstünlüyü, orijinallığı, əxlaqi-mədəni məzmunu, unikal və spesifik estetikası ilə seçilir.

**Ədəbiyyat**

1. Əsgərli Z. XIX əsr Azərbaycan şeri antologiyası, Bakı, "Şərq-Qərb", 2005. - S. 222. 424 səh.
2. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı, "Elm və Təhsil" - 2017. S. 124-127. - 552 s.
3. Деар П., Шейпин С. Научная революция как событие / Пер. с англ. А. Маркова. - Москва: Новое литературное обозрение, 2015. - 576 с.: ил. - С. 315-318
4. Харари Ю. Н. Sapiens. Краткая история человечества / Юваль Ной Харари; пер. с англ. Л. Сумм. - Москва: Сидбад, 2019. - С. 281-283. - 530 с.
5. Schuele, Donna C. «None Could Deny the Eloquence of the Lady: Women, Law and Government in California, 1850-1890,» California History, Volume 81. Number 3-4. (2003): pp. 169-198

**САADAT АРИФ КЫЗЫ АГАКИШИЕВА**

## ТВОРЧЕСКИЕ ПРИОРИТЕТЫ ЖЕНЩИН-ПИСАТЕЛЕЙ АЗЕРБАЙДЖАНА В XIX, НАЧАЛЕ XX ВЕКА: ПРОСВЕЩЕНИЕ И АЗЕРБАЙДЖАНСКАЯ ЖЕНЩИНА

**Резюме**

В наше время еще более глубокое изучение литературного и художественного наследия азербайджанских писательниц имеет очень важное значение. В нынешнем информационном обществе, где глобальные тенденции развиваются стремительными темпами, а политический либерализм, толерантность и другие общечеловеческие ценности стали наиболее адекватным содержанием человеческой жизни и образом мышления, научный анализ и изучение личных мнений, мыслей, чувств и эмоций женщин, которые составляют один из морально-этических и культурных столпов человечества, выраженных в произведениях искусства, слове и речи, стали чрезвычайно актуальными. В этой связи особый интерес представляет мужество этих женщин, с достоинством выдержавших суровые испытания и лишения эпохи (XIX, начала XX в.), полной потрясений и коренных перемен, их борьба за свободу, правду и справедливость. В представленной научной статье рассматривается литературное

творчество азербайджанских писательниц, чьи имена золотыми буквами вписаны в славную историю литературной мысли азербайджанского народа (XIX век – начало XX века), раскрываются истоки их гениальности, характер созданных ими произведений, их идейно-политическое содержание и нравственное предназначение. Рассматривается влияние эпохи Просвещения на азербайджанское общество и на мировоззрение писательниц Азербайджана, а также главные механизмы этого влияния. Научное осмысление нравственных и культурных качеств писательниц Азербайджана XIX - начала XX столетия, воспевание ими идей гуманизма, просвещения, добрых и благородных деяний в их произведениях выступают как лейтмотив статьи.

**Ключевые слова:** писательница, азербайджанская женщина, просвещение, гуманизм, свобода, равенство.

**SAADAT ARIF GIZI AGAKISHIEVA**

## CREATIVE PRIORITIES OF WOMEN WRITERS OF AZERBAIJAN IN THE 19TH AND EARLY 20TH CENTURIES: ENLIGHTENMENT AND THE AZERBAIJANI WOMAN

### Summary

In our time, an even deeper study of the literary and artistic heritage of Azerbaijani female writers is of great importance. In today's information society, where global trends are developing at a rapid pace, and political liberalism, tolerance and other universal values have become the most adequate content of human life and way of thinking, In today's information society, where global trends are developing at a rapid pace, and political liberalism, tolerance and other universal values have become the most adequate content of human life and way of thinking. In this regard, the courage of these women, who withstood with dignity the harsh trials and hardships of an era (19th, early 20th centuries) full of upheavals and radical changes, and their struggle for freedom, truth and justice, are of particular interest. This scientific article examines the literary work of Azerbaijani female writers, whose names are inscribed in golden letters in the glorious history of literary thought of the Azerbaijani people (19th century - early 20th century), revealing the origins of their genius, the nature of the works they created, their ideological and political content and moral purpose. The influence of the Enlightenment on Azerbaijani society and the worldview of Azerbaijani female writers, as well as the main mechanisms of this influence, are examined. The scientific understanding of the moral and cultural qualities of Azerbaijani female writers of the 19th and early 20th centuries, their glorification of the ideas of humanism, enlightenment, good and noble deeds in their works act as the leitmotif of the article.

**Keywords:** writer, Azerbaijani woman, education, humanism, freedom, equality.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Günel Yunusova**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 482-488*